**Hörmətli professor Ədalət Muradov, Sizi və rektoru olduğunuz Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) kollektivini 90 illik yubileyiniz münasibəti ilə təbrik edirəm.**

Azərbaycan Dövlət İqtisad Universiteti bu 90 il ərzində Azərbaycanda iqtisadçı kadrların yetişdirilməsində müstəsna rola makik olmuşdur. Xüsusi ilə Sizin rektor olduğunuz son illər UNEC-in imicində xeyli müsbət dəyişikliyə nail olmusunuz. Professor –müəllim heyyətinin elmi potensialının artırılmasında müstəsna əhəmiyyət kəsb edən differensial əmək haqqı sistemi, nüfuzlu elmmetrik bazalarda (Web of Scince və Scopus) dərc olunmuş elmi məqalələrə görə 4000 manata qədər mükafatın verilməsi, yubiley yaşına çatan əməkdaşlara bir aylıq əmək haqqı məbləğində mükafatın verilməsi, gənc kadrların elmi və tədris fəaliyyətinə cəlb edilməsi, xarici ölkələrin universitetlərində çalışan tanınmış elm adamlarının unversitetdə yaradılan tədqiqat mərkəzlərinin işlərində fəal iştirak etməsi universitetin nifuzunu xeyli artırmışdır. Bütün bunlar dayanıqlı inkişafın mühüm həlqasını təşkil edən elm və təhsilin inteqrasiyasının yaradılmasının bariz nümunəsidir. Bu müsbət dəyişiklikləri şəxsən özüm universitetin hər il keçirdiyi elm aylığı çərçivəsində 2019-cu ildə universitetdə olduğum və çıxış etdiyim zaman şahidi olmuşam.

Sizin yüksək elmi potensiala malik iqtisadçı kadrların yetişdirilməsində fədakar əməyinizi yüksək qiymətləndirirəm və düşünürəm ki, gələcəkdədə müsbət dəyişikliklər daha da genişlənəcək, ölkə başçısı İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələcəksiniz. Bu işdə Sizə uğurlar arzulayıram.

***Dərin hörmətlə,***
***AMEA-nin İdarəetmə Sistemləri İnstitutunun direktoru,***
***akademik Telman ƏLİYEV***